# Naxçıvanda "COP29, İqlim dəyişikliklərinin ətraf mühitin komponentlərinə təsirləri" mövzusunda konfrans keçiriləcək

Naxçıvan Biznes Mərkəzində "COP29, İqlim dəyişikliklərinin ətraf mühitin komponentlərinə təsirləri" mövzusunda konfrans keçiriləcək.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, avqustun 8-də COP29-un prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Konfransda iqlim dəyişikliyi və onun ətraf mühitə təsiri mövzusunda çıxışlar olacaq, panel müzakirələr aparılacaq.

**AZƏRTAC**
**2024, 8 avqust**